**Azərbaycan Respublikası adından**

**Q Ə T N A M Ə**

**İş № 2-1(103)-341/2010**

**04 avqust 2010-cu il** **Bakı şəhəri**

Bakı Apellyasiya Məhkəməsinin İnzibati - İqtisadi Kollegiyası

Hakimlər Səriyyə Seyid qızı Seyidovanın sədrliyi ilə (məruzəçi),
Sərvət Qeybəli oğlu Hüseynov və Mirzəli Əbdüləli oğlu Abbasovdan ibarət tərkibdə,
Məhkəmə iclas katibi Vüsalə Dadaş qızı Abdulrəsulova
**İddiaçı: "Parabank" ASC**, onun nümayəndəsi Sanılı Rüfət Tahir oğlu iştirak edir,
**Cavabdeh: Həsənova Gültəkin Yaqub qızı** iştirak edir.

1 saylı Bakı Yerli İqtisad Məhkəməsinin (hakim: Q.R.Abbasov) 2(81)-27/2010 saylı, 04 mart 2010-cu il tarixli qətnaməsindən iddiaçı "Parabank" ASC-nin verdiyi apellyasiya şikayətinə **04.08.2010-cu** il tarixdə Bakı şəhəri, Z.Xəlilov küçəsi, 540-cı məhəllə, Bakı Apellyasiya Məhkəməsinin binasında açıq məhkəmə iclasında baxaraq,

***MÜƏYYƏN ETDİ:***

İddiaçı "Parabank" ASC cavabdeh Həsənova Gültəkin Yaqub qızına qarşı iddia ərizəsi ilə məhkəməyə müraciət edərək cavabdehdən iddiaçının xeyrinə 2005-ci il 09 sentyabr tarixli 24/05 №-li kredit müqaviləsinə edilmiş 27 yanvar 2006-cı il tarixli 01 №-li əlavə və dəyişikliklər üzrə 6808,17 ABŞ dolları dəbbə pulunun; 27 sentyabr 2006-cı il tarixli 02 №-li əlavə və dəyişikliklər üzrə 35635,63 ABŞ dolları dəbbə pulunun; 27 mart 2007-ci il tarixli 03 №-li əlavə və dəyişikliklər üzrə isə 2820 ABŞ dolları dəbbə pulunun, cəmi 45263,80 ABŞ dollarının milli manat ekvivalentində, hüquqi yardıma görə ödənilmiş xərcin əvəzi olaraq 500 manıtın və 20 manat ödənilmiş dövlət rüsumunun tutulması, kredit müqaviləsi və ona edilmiş əlavə və dəyişikliklər üzrə borcun əvəzinə isə ipoteka ilə yüklü edilmiş Bakı şəhəri Nəsimi rayonu 28 May küçəsi 56 №-li binada yerləşən Həsənova Gültəkin Yaqub qızının mülkiyyətində olan 35,5 kv.m yaşayış sahəsindən ibarət iki otaqlı, 12 №-li mənzildən Həsənova Gültəkin Yaqub qızının orada yaşayan qeyri şəxslərlə birlikdə çıxarılması, kredit müqaviləsi üzrə borcun əvəzinin ipoteka predmeti olan Bakı şəhəri Nəsimi

rayonu 28 May küçəsi 56 №-li binada yerləşən Həsənova Gültəkin Yaqub qızının mülkiyyətində olan 35,5 kv.m yaşayış sahəsindən ibarət iki otaqlı, 12 №-li mənzilə yönəldilməsi, müvafiq ekspert rəyi alınmaqla mənzilin ilkin satış qiymətinin müəyyən edilməsi və açıq hərracda satılaraq tələb edilən borcun ödənilməsi barədə qətnamə qəbul edilməsini xahiş etmişdir.

1 saylı Bakı Yerli İqtisad Məhkəməsinin 2(81)-27/2010 saylı iş üzrə qəbul etdiyi 04.03.2010-ci il tarixli qətnaməsi ilə "Parabank" ASC-nin Həsənova Gültəkin Yaqub qızına qarşı iddia tələbinin təmin edilməməsi qət edilmişdir.

Qətnamə ilə razı olmayan iddiaçı "Parabank" ASC apellyasiya şikayəti verərək, 1 saylı Bakı Yerli İqtisad Məhkəməsinin 04.03.2010-cu il tarixli qətnaməsinin ləğv edilməsi, iddia tələblərinin təmin edilməsinə dair yeni qətnamə qəbul edilməsini xahiş etmişdir.

Bakı Apellyasiya Məhkəməsinin 13 may 2010-cu il tarixli qərardadı ilə apellyasiya şikayəti apellyasiya icraatına qəbul edilərək, işə baxılması 08 iyun 2010-cu il tarixə təyin edilmiş, məhkəmə iclası bir neçə dəfə təxirə salınmış, işə baxılması sonuncu dəfə 04 avqust 2010-cu il tarixə təxirə salınmış, qətnamə həmin tarixdə elan edilmişdir.

İddiaçının nümayəndəsi R.Sanılı məhkəmə iclasında iddia ərizəsinə əlavə təqdim edərək bildirmişdir ki, "Parabank" ASC cavabdehdən iddia ərizəsində göstərilən 45263,80 ABŞ dolları məbləğində dəbbə pulundan yalnız 17810,77 ABŞ dolları məbləğində pulun tutulmasını, dəbbə pulun qalan hissəsindən imtina edilməsini; hüquqi yardıma görə ödənilmiş xərcin əvəzi olaraq 500 manat pulun və 20 manat ödənilmiş dövlət rüsumunun əvəzinin tutulmasını; kredit müqaviləsi və ona edilmiş əlavə və dəyişikliklər üzrə borcun əvəzinə isə ipoteka ilə yüklü edilmiş Bakı şəhəri Nəsimi rayonu 28 May küçəsi 56 №-li binada yerləşən Həsənova Gültəkin Yaqub qızının mülkiyyətində olan 35,5 kv.m yaşayış sahəsindən ibarət iki otaqlı, 12 №-li mənzildən Həsənova Gültəkin Yaqub qızının orada yaşayan qeyri şəxslərlə birlikdə çıxarılmasını; kredit müqaviləsi üzrə borcun əvəzinin ipoteka predmeti olan Bakı şəhəri Nəsimi rayonu 28 May küçəsi 56 №-li binada yerləşən Həsənova Gültəkin Yaqub qızının mülkiyyətində olan 35,5 kv.m yaşayış sahəsindən ibarət iki otaqlı, 12 №-li mənzilə yönəldilməsini xahiş edir.

Cavabdeh G.Həsənova məhkəmə iclasında izahat verərək iddiaçının ondan dəbbə pulu üzrə tələb etdiyi 17810,77 ABŞ dolları məbləğində pulun yalnız 15 %-i həcmində pul ödəyə biləcəyini, iddianın qalan hissəsinin isə rədd edilməsi barədə qətnamə qəbul edilməsini xahiş etmişdir.

Məruzəçi hakimin məruzəsini, iddiaçının nümayəndəsinin və cavabdehin izahatlarını dinləyərək, apellyasiya şikayətinin dəlillərini və iş materiallarını hərtərəfli araşdıraraq, məhkəmə kollegiyası hesab edir ki, 1 saylı Bakı Yerli İqtisad Məhkəməsinin 04.03.2010-cu il tarixli qətnaməsi qismən ləğv edilməli, iddiaçı "Parabank" ASC-nin apellyasiya şikayəti qismən təmin edilməli, apellyasiya şikayəti üzrə ödənilmiş 24 manat məbləğində dövlət rüsumu iddiaçının özünə aid edilməlidir.

Belə ki, iş materiallarında olan "Parabank" ASC-nin nizamnaməsindən görünür ki, "Parabank" ASC 14.03.2007-ci il tarixdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyində dövlət qeydiyyatına alınmışdır.

“Parabank” ASC-nin Əzizbəyov filialı ilə Həsənova Gültəkin Yaqub qızı arasında 09.09.2005-ci il tarixdə bağlanmış 24/05 saylı kredit müqaviləsindən görünür ki, cavabdehə 30.000 ABŞ dolları həcmində kredit, bir ədəd 1000 ABŞ dolları və iki ədəd 500 ABŞ dolları (plastik kart ilə) verilmişdir.

Həmin borcun təminatı olaraq “Parabank” ASC-nin Əzizbəyov filialı ilə Həsənova Gültəkin Yaqub qızı arasında 09.09.2005-ci il tarixdə bağlanmış 24/05 №-li ipoteka müqaviləsinə əsasən cavabdehin mülkiyyətində olan Bakı şəhəri Nəsimi rayonu 28 May küçəsində yerləşən 56 saylı evin 12 saylı mənzili ipoteka ilə yüklü edilmişdir.

09.09.2005-ci il tarixli 24/05 saylı kredit müqaviləsinə edilmiş 27.01.2006-cı il tarixli 01 №-li əlavə və dəyişikliklərə əsasən Həsənova Gültəkin Yaqub qızı “Parabank” ASC-dən dövriyyə vəsaitinin alınması məqsədi ilə illik 28% olmaqla 12 ay müddətinə 45000 ABŞ dolları və plastik kartla illik 30%-lə 12 ay müddətinə 1000 ABŞ dolları; 27.09.2006-cı il tarixli 02 saylı əlavə və dəyişikliklərə əsasən dövriyyə vəsaitinin artırılması məqsədi ilə illik 32%-lə 24 ay müddətinə 20000 ABŞ dolları; 27.03.2007-ci il tarixli 03 saylı əlavə və dəyişikliklərə əsasən dövriyyənin artırılması məqsədi ilə illik 32%-lə 6 ay müddətinə 20000 ABŞ dolları borc almışdır.

09.09.2005-ci il tarixli 24/05 saylı ipoteka müqaviləsinə 27.01.2006-cı il tarixdə 1 №-li, 27.09.2006-cı il tarixdə 02 №-li, 27.03.2007-ci il tarixdə 03№-li əlavə və dəyişikliklər edilmişdir.

09.09.2005-ci il tarixli Kredit Müqaviləsinin 9-cu bəndinə əsasən borc alan üzərinə düşən öhdəlikləri qrafik üzrə müəyyənləşdirilmiş müddətdə icra etmədikdə hər gecikdirilən gün üçün ödənilməli məbləğin 1%-i miqdarında dəbbə pulu; 27.03.2007-ci il tarixli 03№-li əlavə və dəyişikliklərin 1.7-ci bəndinə görə borc alan üzərinə düşən öhdəlikləri qrafik üzrə müəyyənləşdirlmiş müddətdə icra etmədikdə hər gecikdirilən gün üçün kreditin əsas məbləğindən 0.15%-i miqdarında dəbbə pulu 56% məzənnə ilə faizlər ödənilməlidir.

İş materiallarından və cavabdehin məhkəmə iclasında verdiyi izahatından görünür ki, kredit və faiz borcu cavabdeh tərəfindən tamamilə “Parabank” ASC-nə ödənilmişdir. Cavabdeh Həsənova Gültəkin Yaqub qızının “Parabank” ASC-yə yalnız dəbbə pulu borcu qalmışdır.

Azərbaycan Respublikası Mülki Məcəlləsinin 462.1-ci maddəsinə əsasən dəbbə pulu (cərimə, penya) müqavilə ilə müəyyənləşdirilən, öhdəliyin icra edilmədiyi və ya lazımınca icra edilmədiyi, o cümlədən icranın gecikdirildiyi halda borclunun kreditora ödəməli olduğu pul məbləğidir.

İş materiallarında olan Bakı şəhəri Vergilər Departamentinin Bəyannamələrin qəbulu və işlənməsi İdarəsinin 26.02.2010-cu il tarixli arayışından görünür ki, Gültəkin Həsənova 2007-ci ilin ikinci rübü də daxil olmaqla qalan rüblərdə və 2008-ci ilin rübləri üzrə vergi orqanına vergi öhdəliyinin yaranmamasına dair sadələşdirilmiş vergi bəyannamələrinin əvəzinə arayışlar təqdim etmişdir. Fiziki şəxsin 24.12.2008-ci il tarixli “Vergi ödəyicisinin, onun filialının, nümayəndəliyinin və ya digər təsərrüfat subyektlərinin (obyektinin) fəaliyyətinin və digər vergi tutulan əməliyyatlarının dayandırılması haqqında” arayışına əsasən onun fəaliyyəti 24.12.2008-ci il tarixdən 24.12.2013-cü il tarixədək dayandırılmışdır.

Göründüyü kimi cavabdeh sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilməmiş, öhdəliyini təqsiri olmadan baş vermiş halların nəticəsində icra edə bilməmişdir. Bunun nəticəsində də iddiaçı tərəfindən cavabdehə dəbbə pulu hesablanmışdır.

İddiaçının nümayəndəsi tərəfindən məhkəmə təqdim edilmiş arayışlardan görünür ki, 09.09.2005-ci il tarixli 24/05 №-li kredit müqaviləsinə edilmiş 27.01.2006-cı il tarixli 1 №-li əlavəyə əsasən 5989,02 ABŞ dolları; 27.09.2006-cı il tarixli 2 №-li əlavəyə əsasən 9001,75 ABŞ dolları; 27.03.2007-ci il tarixli 3 №-li əlavəyə əsasən 2820 ABŞ dolları olmaqla cavabdehin "Parabank" ASC-nə 17810,77 ABŞ dolları məbləğində dəbbə pulu borcu var.

Azərbaycan Respublikası Mülki Məcəlləsinin 467-ci maddəsinə əsasən məhkəmə işin hallarını nəzərə alaraq tənasübsüz surətdə yüksək dəbbə pulunu azalda bilər. Tənasüb müəyyənləşdirilərkən kreditorun həm əmlak mənafeləri, həm də bütun əsaslı mənafeləri nəzərə alınır.

Məhkəmə hesab edir ki, cavabdeh Həsənova Gültəkin Yaqub qızından iddiaçı "Parabank" ASC-nin xeyrinə 17810,77 ABŞ dolları məbləğində dəbbə pulunun 15%-i manat məzənnəsi ilə tutulmalı; kredit müqaviləsi və ona edilmiş əlavə və dəyişikliklər üzrə borcun əvəzinə isə ipoteka ilə yüklü edilmiş Bakı şəhəri Nəsimi rayonu 28 May küçəsi 56 №-li binada yerləşən Həsənova Gültəkin Yaqub qızının mülkiyyətində olan 35,5 kv.m yaşayış sahəsindən ibarət iki otaqlı, 12 №-li mənzildən Həsənova Gültəkin Yaqub qızının orada yaşayan qeyri şəxslərlə birlikdə çıxarılmalı; kredit müqaviləsi üzrə borcun əvəzinin ipoteka predmeti olan Bakı şəhəri Nəsimi rayonu 28 May küçəsi 56 №-li binada yerləşən Həsənova Gültəkin Yaqub qızının mülkiyyətində olan 35,5 kv.m yaşayış sahəsindən ibarət iki otaqlı, 12 №-li mənzilə yönəldilməlidir.

İddiaçı iddia ərizəsində həmçinin hüquqi yardıma görə ödənilmiş xərcin əvəzi olaraq 500 manat məbləğində pulun da cavabdehdən tutularaq iddiaçıya ödənilməsini xahiş etmişdir.

Azərbaycan Respublikası Mülki Prosessual Məcəllənin 121.1-ci maddəsinə əsasən məhkəmə nümayəndənin və ya vəkilin göstərdiyi yardıma görə xərclərin, konkret hallar və çıxış üçün təqdim olunmuş hesab nəzərə alınmaqla, digər tərəfdən ağlabatan məbləğdə alınıb xeyrinə qətnamə çıxarılan tərəfə verilməsini qərara alır.
Qanunvericiliyin tələbindən görünür ki, məhkəmə nümayəndənin və vəkilin göstərdiyi yardıma görə xərcləri müəyyən edərkən, onların ağlabatan miqdarda olmasına diqqət yetirməlidir. Məbləğin ağlabatan olması o, deməkdir ki, məhkəmə nümayəndənin və vəkilin göstərdiyi yardıma görə onlara ödənilməli məbləği müəyyənləşdirilərkən konkret halları, yəni göstərilən yardımın həcmini, müddətini, nümayəndənin və vəkillərin sayını, işin mürəkkəbliyini və sair halları nəzərə almalıdır.

İnsan hüquqları üzrə Avropa Məhkəməsinin president təcrübəsinə əsasən də göstərilən məhkəmə xərcləri tutularkən həmin məbləğ sübut edilən həddə və həmçinin ağlabatan miqdarda olmalıdır.
Məhkəmə hesab edir ki, iddiaçının cavabdehdən hüquqi yardıma görə tələb etdiyi 500 manat məbləğində pulun tutulmasına dair tələbi təmin edilə bilməz.

Göstərilənlərə əsasən işə apellyasiya qaydasında baxan məhkəmə hesab edir ki, 1 saylı Bakı Yerli İqtisad Məhkəməsinin 2(81)-27/2010 saylı iş üzrə qəbul etdiyi 04.03.2010-cu il tarixli qətnaməsi qismən - cavabdeh Həsənova Gültəkin Yaqub qızından iddiaçı "Parabank" ASC-nin xeyrinə 45.263,80 ABŞ dolları məbləğində dəbbə pulunun tutulmaması; kredit müqaviləsi və ona edilmiş əlavə və dəyişikliklər üzrə borcun əvəzinə isə ipoteka ilə yüklü edilmiş Bakı şəhəri Nəsimi rayonu 28 May küçəsi 56 №-li binada yerləşən Həsənova Gültəkin Yaqub qızının mülkiyyətində olan 35,5 kv.m yaşayış sahəsindən ibarət iki otaqlı, 12 №-li mənzildən Həsənova Gültəkin Yaqub qızının orada yaşayan qeyri şəxslərlə birlikdə çıxarılmaması; kredit müqaviləsi üzrə borcun əvəzinin ipoteka predmeti olan Bakı şəhəri Nəsimi rayonu 28 May küçəsi 56 №-li binada yerləşən Həsənova Gültəkin Yaqub qızının mülkiyyətində olan 35,5 kv.m yaşayış sahəsindən ibarət iki otaqlı, 12 №-li mənzilə yönəldilməməsi hissəsində ləğv edilməli, iddia tələbləri həmin hissədə qismən təmin edilməli, cavabdeh Həsənova Gültəkin Yaqub qızından iddiaçı "Parabank" ASC-nin xeyrinə 17810,77 ABŞ dolları məbləğində dəbbə pulunun 15%-i – 2671,6 (iki min altı yüz yetmiş bir ABŞ dolları 6 sent) ABŞ dolları ödənilmə tarixinə manat məzənnəsi ilə tutulmalı; kredit müqaviləsi və ona edilmiş əlavə və dəyişikliklər üzrə borcun əvəzinə isə ipoteka ilə yüklü edilmiş Bakı şəhəri Nəsimi rayonu 28 May küçəsi 56 №-li binada yerləşən Həsənova Gültəkin Yaqub qızının mülkiyyətində olan 35,5 kv.m yaşayış sahəsindən ibarət iki otaqlı, 12 №-li mənzildən Həsənova Gültəkin Yaqub qızının orada yaşayan qeyri şəxslərlə birlikdə çıxarılmalı; kredit müqaviləsi üzrə borcun əvəzinin ipoteka predmeti olan Bakı şəhəri Nəsimi rayonu 28 May küçəsi 56 №-li binada yerləşən Həsənova Gültəkin Yaqub qızının mülkiyyətində olan 35,5 kv.m yaşayış sahəsindən ibarət iki otaqlı, 12 №-li mənzilə yönəldilməli, qətnamə qalan hissələrdə dəyişdirilmədən saxlanılmalı, iddiaçı "Parabank" ASC-nin apellyasiya şikayəti qismən təmin edilməli, apellyasiya şikayəti üzrə ödənilmiş 24 manat məbləğində dövlət rüsumu iddiaçı "Parabank" ASC-nin özünə aid edilməlidir.

Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 382, 384.0.2, 393 və 405-ci maddələrini rəhbər tutaraq , məhkəmə

**Q Ə T   E T D İ :**

1 saylı Bakı Yerli İqtisad Məhkəməsinin 2(81)-27/2010 saylı iş üzrə qəbul etdiyi 04 mart 2010-cu il tarixli qətnaməsi qismən - cavabdeh Həsənova Gültəkin Yaqub qızından iddiaçı "Parabank" Açıq Səhmdar Cəmiyyətinin xeyrinə 45.263,80 ABŞ dolları məbləğində dəbbə pulunun tutulmaması; kredit müqaviləsi və ona edilmiş əlavə və dəyişikliklər üzrə borcun əvəzinə isə ipoteka ilə yüklü edilmiş Bakı şəhəri Nəsimi rayonu 28 May küçəsi 56 №-li binada yerləşən Həsənova Gültəkin Yaqub qızının mülkiyyətində olan 35,5 kv.m yaşayış sahəsindən ibarət iki otaqlı, 12 №-li mənzildən Həsənova Gültəkin Yaqub qızının orada yaşayan qeyri şəxslərlə birlikdə çıxarılmaması; kredit müqaviləsi üzrə borcun əvəzinin ipoteka predmeti olan Bakı şəhəri Nəsimi rayonu 28 May küçəsi 56 №-li binada yerləşən Həsənova Gültəkin Yaqub qızının mülkiyyətində olan 35,5 kv.m yaşayış sahəsindən ibarət iki otaqlı, 12 №-li mənzilə yönəldilməməsi hissəsində ləğv edilsin. İddia tələbləri həmin hissədə qismən təmin olunsun.

Cavabdeh Həsənova Gültəkin Yaqub qızından iddiaçı “Parabank” Açıq Səhmdar Cəmiyyətinin xeyrinə 17810,77 ABŞ dolları məbləğində dəbbə pulunun 15%-i – 2671,6 (iki min altı yüz yetmiş bir ABŞ dolları 6 sent) ABŞ dolları ödənilmə tarixinə manat məzənnəsi ilə tutulsun.

Kredit müqaviləsi və ona edilmiş əlavə və dəyişikliklər üzrə borcun əvəzinə isə ipoteka ilə yüklü edilmiş Bakı şəhəri Nəsimi rayonu 28 May küçəsi 56 №-li binada yerləşən Həsənova Gültəkin Yaqub qızının mülkiyyətində olan 35,5 kv.m yaşayış sahəsindən ibarət iki otaqlı, 12 №-li mənzildən Həsənova Gültəkin Yaqub qızı orada yaşayan qeyri şəxslərlə birlikdə çıxarılsın.

Kredit müqaviləsi üzrə borcun əvəzinin ipoteka predmeti olan Bakı şəhəri Nəsimi rayonu 28 May küçəsi 56 №-li binada yerləşən Həsənova Gültəkin Yaqub qızının mülkiyyətində olan 35,5 kv.m yaşayış sahəsindən ibarət iki otaqlı, 12 №-li mənzilə yönəldilsin.

Qətnamə qalan hissələrdə dəyişdirilmədən saxlanılsın.

İddiaçı “Parabank” Açıq Səhmdar Cəmiyyətinin apellyasiya şikayəti qismən təmin edilsin.

Apellyasiya şikayəti üzrə ödənilmiş 24 manat məbləğində dövlət rüsumu iddiaçı “Parabank” ASC-nin özünə aid edilsin.

Qətnamədən 2 ay müddətində Bakı Apellyasiya Məhkəməsi vasitəsi ilə Azərbaycan Respublikası Ali Məhkəməsinin İnzibati - iqtisadi kollegiyasına kassasiya şikayəti verilə bilər.